DOI:10.30546/gdu.2023.152-157

UOT: 94.

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN KİTABXANALARI BİZNES SAHƏSİ ÜZRƏ MÜTƏXƏSSİS HAZIRLIĞININ İNFORMASİYA TƏMİNATÇISI KİMİ

***Kərimova Sevda Həmid qızı***
***Bakı Dövlət Universiteti***
***sevda.kerimova1@gmail.com***

**Xülasə:** *Məqalənin əsas məqsədi ali təhsil müəssisələrində iqtisadiyyat və menecment profili üzrə mütəxəssislərin hazırlanmasının kitabxana-informasiya təminatının optimallaşdırılması yollarının əsaslandırılmasıdır. Məqalədə bu ixtisaslar üzrə mütəxəssislərin hazırlanması ilə məşğul olan ali təhsil ocaqlarının kitabxanalarının fəaliyyəti tədqiqata cəlb olunmuş, kitabxana-informasiya təminatı məsələləri və problemləri araşdırılmışdır. İlk öncə müasir ali təhsil müəssisəsi kontekstində iqtisadiyyat və menecment sahələri üzrə mütəxəssislərin hazırlanmasının kitabxana-informasiya təminatı təhlil edilir. Ardınca bu ixtisaslar üzrə təhsil alan tələbələrin informasiya ehtiyacları araşdırılır və onların xüsusiyyətləri müəyyən edilir, bu sahədə təhsili həyata keçirən ali təhsil institutlarının kitabxanalarının iş funksiyalarının həcmi və imkanları müəyyənləşdirilir. Məqalə yazılarkən təhlil və müqaisə metodlarından istifadə edilmişdir.Tətbiqi əhəmiyyəti: material ali təshil müəssisələrində mühazirə və seminarlarda istifadə oluna bilər. Məqalə kitabxanaçılıq, tarix, təhsil sahəsi ilə maraqlananlar üçün də faydalıdır.*

**Açar sözlər:** iqtisadiyyat, universitet, kitabxana, Kitabxana İnformasiya Mərkəzi, kitabxana-informasiya xidməti, oxucu, elektron

**Ключевые слова:** экономика, университет, библиотека, Библиотечно-информационный центр, библиотечно-информационная служба, читатель, электронный

**Key words:** economy, university, library, Library Information Center, library-information service, reader, electronic

## Giriş

Respublikada iqtisadiyyat və menecment üzrə mütəxəssislərin hazırlanması peşəkar iqtisadi təhsilin müvafiq sahələri və mütəxəssislərin hazırlanması sahəsində beynəlxalq təcrübə, eləcə də onun keyfiyyətinin əsas meyarı olan peşəkar tələb üzrə əmək bazarının inkişafının qlobal tendensiyaları nəzərə alınmaqla həyata keçirilir. Bu proses iqtisadi və inzibati profilli ali ixtisas təhsili müəssisələrinin və qeyri-profilli ali təhsil müəssisələrinin iqtisadiyyat və idarəetmə ixtisasları sahəsində mütəxəssislərin hazırlanması ilə məşğul olan fakultələri tərəfindən reallaşdırılır.

Kitabxana-informasiya təminatı ali təhsil müəssisələrinin uğurlu təhsil fəaliyyətində, o cümlədən, iqtisadiyyat və menecment ixtisasları üzrə fəaliyyət göstərən fakultələrin tələbələrinin təhsilində mühüm rol oynayır. Kitabxana-informasiya təminatı dedikdə, istifadəçilərin informasiya ehtiyaclarının kitabxananın bütün mövcud vasitə və resursları vasitəsilə ödənilməsi başa düşülür. Universitet kitabxanaları informasiya cəmiyyətinin yeni şərtləri ilə fəaliyyət göstərir, lakin eyni zamanda, kitabxana fondlarının formalaşdırılması, mühafizəsi və kitabxana-biblioqrafiya xidmətlərinin ənənəvi funksiyalarını həyata keçirir.

Bu baxımdan, iqtisadiyyat və menecment sahəsində mütəxəssis hazırlığını həyata keçirən ali təhsil ocaqlarının informasiya məkanında kitabxanaların rolunun və yerinin müəyyənləşdirilməsinə və əsaslandırılmasına ehtiyac vardır.

## Əsas hissə

1993-cü ildə yaradılmış Bakı Biznes Universiteti hal-hazırda bazar iqtisadiyyatı dövründə yüksək ixtisaslı iqtisadçı mütəxəssislər hazırlayan özəl ali təhsil ocağıdır. Universitetin missiyası sahibkarlıq və biznes sahəsində yüksək ixtisaslı kadr hazırlamaqdır.

DOI:10.30546/gdu.2023.152-157

Bakı Biznes Universitetində tədris 2 fakültədə 8 kafedra tərəfindən magistr hazırlığı və bakalavr üzrə 18 ixtisas üzrə aparılır.

Universitetdə geniş oxucu kontingentinə malik kitabxana tələbələrin müstəqil fəaliyyətinin həyata keçirilməsində mühüm rol oynayır. Kitabxananın fondu elmi, tədris və metodiki informasiyaların başlıca mənbəyidir. Kitabxanada abonoment fəaliyyət göstərmir. Burada yalnız böyük oxu zalı mövcuddur. Oxu zalında 50.000 nüsxəyə yaxın ədəbiyyat mövcuddur. Oxu zalında açıq fond fəaliyyət göstərir və kitablar 8 kafedranın adı üzrə bölünərək yerləşdirilmişdir. Burada həmçinin universitetdə tədris olunan bütün fənlər üzrə professor-müəllim heyəti tərəfindən tərtib edilmiş mühazirə mətnləri çap edilərək cildlənmiş şəkildə toplanmışdır. Bu materiallar da tələbələr tərəfindən müstəqil şəkildə istifadə olunur. Oxucular kitabxanada mövcud olan elektron kataloq və elektron kitabxana vasitəsilə yeni nəşr olunmuş 800 adda ən müasir dərsliklərin elektron versiyalarından istifadə etmək imkanına malikdirlər. Eyni zamanda, 45 ədəd noutbuk oxucuların istifadəsindədir. Mühazirə mətnləri və elektron kitablar bu noutbukların yaddaşına da yüklənmişdir. Bakı Biznes Universitetinin 96 nəfərdən ibarət professor-müəllim və 1.500-ə yaxın tələbə heyəti vardır. Oxu zalından hər gün 10-15 müəllim və 400-500 tələbə istifadə edir **[7]**.

2006-cı ildə yaradılan ADA Universitetinin məqsədi digər sahələrlə yanaşı biznes sahəsində liderlər yetişdirməkdir. ADA Universitetinin kitabxanası 2006-2007-ci illərdə formalaşmağa başlamışdır. Burada Texniki Xidmətlər Şöbəsi, Dövriyyə Xidmətləri Şöbəsi, Tədqiqat və Təlimat Xidmətləri Şöbəsi və Sistem Administrasiyası Şöbəsi fəaliyyət göstərir. Kitabxananın fondu 45.000 nüsxədən çoxdur. EBL və Ebrary elektron kitabxanalar vasitəsilə 500.000 nüsxə elektron kitab əldə edilmişdir. Kitabxana 65 məlumat bazasına 24 illik abunədir. Bu bazaların 41-i istifadə üçün açıqdır.

Soraq və biblioqrafik nəşrlər fondu 955 nüsxə çap vahidindən ibarətdir. Kitabxananın həmçinin onlayn ümumaçıq elektron kataloqu vardır [8]. Bundan başqa, OPAC və SUMMON elektron kataloqları vasitəsilə kitabların, e-kitabların, elektron verilənlər bazalarında yerləşən dövri nəşrlərin və məqalələrin axtarışı aparılır. Kitabxana Jstor, EbscoHost, ProQuest, Web of Science, Science Direct, Taylor & Francis, Hein Online, Econbiz, Columbia International Affairs, Elsevier, Foreign Policy, International Monetary Fund, Chronicle of Higher Education elektron bazalar vasitəsilə oxuculara xidmət edir və EBL (139.360 kitab) və Ebrary (16.787 kitab) adlı 2 elektron kitabxanaya abunəlik vasitəsilə ümumilikdə 156.147 adda e-kitaba çıxış imkanını təmin edir.

Bakı Mühəndislik Universiteti kitabxanasının fondu 131.000 nüsxəyə yaxındır. Fondda Azərbaycan, türk, ərəb, fars, rus, ispan, italyan, fransız və alman dillərində ədəbiyyatlar vardır. Kitabxana "CAMBRİDGE UNİVERSİTY PRESS", "EBSCOHOST", "EBSCOHOST EBOOK", "JSTOR", "Science Direct", "DOAJ", "HINARI", "Serials Solutions", "Ulrichs", "Turkish Review", "HR Dergi", "Modern Türklük Araştırmaları Dergisi", Uluslararası Sosyal Araştırmalar Dergisi", "Ankara Universitesi Kitaplar Veri Tabanı", "Ankara Universitesi Dergilər Veri Tabanı" kimi beynəlxalq elektron məlumat bazalarına abunədir. Bakı Mühəndislik Universitetinin kitabxanası həmçinin, "EBSCOhost" və "Web of Science" elektron portallarının üzvüdür [5]. Oxucular elektron kitabxana vasitəsilə 57 adda beynəlxalq e-jurnala, 22 adda e-kitaba və 50 ən tanınmış ABŞ və dünya qəzetlərindən və 13 rəqəmsal arxivdən istifadə etmək imkanına malikdirlər. Kütləvi kataloqlar bölməsində Azərbaycan, Türkiyə, ABŞ və bəzi dünya ölkələrinin kitabxanalarının 12 elektron kataloqu əks olunmuşdur.

Kitabxanaya hər gün 250-300 nəfər tələbə və 30-35 nəfər müəllim müraciət edir. Hər gün iqtisadi elmlər üzrə 50-60 sorğu ödənilir. Eyni zamanda, Avstraliya və Fransada təhsil

DOI:10.30546/gdu.2023.152-157

alan Azərbaycanlı tələbələr də iqtisadi mövzularda dissertasiya işlərinin yazılması ilə əlaqədar kitabxanaya müraciət edirlər.

Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin (KİM) əsası 1991-ci ildə qoyulmuşdur. Kitabxananın fondu 180.000-dən çox informasiya mənbəyindən ibarətdir. Kitab kolleksiyalarının 80%-i ingilis dilindədir. KİM "EBSCOhost", "Lırn", "RICeST", "Polpred.com", "IOPscience", "Web of Science" kimi onlayn elektron məlumat bazalarına və "DOAJ", "DOAB", "ERİC", "MedlinePlus", "PubMed", "Merck Manual", "GALILEO Scholar Databases", "World Digital Library", "OER Commons" kimi açıq girişə malik elektron resurslara abunədir.

"OPAC" veb-kolleksiyası kitabxananın məlumat bazasında əsas axtarış üsullarını dəstəkləyir. Kitabxananın "Rəqəmsal kitabxana" bölməsində 46 elektron kitaba giriş mümkündür. Bunların 10-una sərbəst giriş vardır. Həmçinin, kitabxana 9 xarici elektron jurnala abunədir [6].

Universitetin nəşri olan "Humanities and social sciences" jurnalı "Thomson Reuteurs" elektron bazasında əks olunur. Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzində 2007-ci ildə yaradılmış Elektron Arxivdə universitet tədqiqatçılarının kitab və məqalələri, müəllim və tələbələrin tədris materialları, digər elmi formatda olan materiallar toplanıb və istifadə üçün açıqdır.  Kitabxananın fondu 150.000 nüsxədən çoxdur. Bunların 10.000-dən çoxu iqtisadiyyat elmlərinə aiddir.

2014-cü ildə yaradılan Turizm və Menecment Universitetinin (ATMU) Kitabxana İnformasiya Mərkəzi (KİM) ölkədə menecment və turizm sahəsində zəngin fondu olan yeganə informasiya mərkəzidir. Burada hal-hazırda 17.000-ə yaxın kitab, 2.000-dən çox kitabça, 200-dən çox xəritə, 600-dən artıq audio və video materiallar toplanmışdır [4]. KİM Ümumdünya Turizm Təşkilatının elektron kitabxanası, "EBSCO HOST" və digər elektron bazalara, 11 qəzet və 14 jurnala abunədir. Həmçinin, Universitetin nəşr etdiyi "Turizm və qonaqpərvərlik tədqiqatları" jurnalının da bütün çap olunmuş nömrələri kitabxanada toplanmışdır.

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası 1999-cu ildən tədris fəaliyyətinə başlamışdır. Akademiyanın elmi kitabxanasının fondu 40.000-dən artıq çap nüsxəsindən ibarətdir. Bunların 10.000-dən çoxu iqtisadi ədəbiyyatdır. Müraciət edən oxucuların təxminən 1/3-i iqtisadi mövzularda sorğular verir. Bu sorğular kitabxana fondu və onlayn elektron bazalar vasitəsilə ödənilir. Kitabxana oxuculara oxu zalı və abonoment vasitəsilə xidmət göstərir və şifahi arayışlar verilir [2, s. 43-57].*

*Elmi kitabxananın fondunda iqtisadiyyatın müxtəlif sahələri üzrə 700 nüsxə jurnal mövcuddur. Kitabxana "İqtisadiyyat" qəzetinə və "Mirovaya ekonomika mejdunarodnıx otnoşeniy" jurnalına və ingilis dilində 14 adda jurnala abunədir. Bunlardan əlavə, "Dövlət idarəçiliyi: nəzəriyyə və tərcümə" jurnalında "İqtisadiyyat" bölməsi mövcuddur ki, bu bölmədə müxtəlif iqtisadi sahələr haqqında məlumatlar əks olunur.*

*Kitabxana "EBSCO HOST", "IEEE Xplore Digital", "IOPscience", "BioOne Online Journals" və "IPRbooks" onlayn elektron bazalara abunədir.*

Azərbaycan Dövlət İqtisad Universitetinin Kitabxana İnformasiya Mərkəzi (KİM) universitetin aparıcı struktur bölmələrindən biri olub, təlim-tərbiyə və elmi tədqiqat prosesini tədris, elmi, metodiki ədəbiyyatla və informasiya materialları ilə təmin edən və bilikləri təbliğ edən mənəvi və intellektual əlaqələrin yayılması mərkəzidir. KİM 1930-cu ildən fəaliyyət göstərir və tələbə, aspirant, bakalavr, magistr, doktorant, elmi işçi, professor-müəllim, mühəndis-texniki heyətə və universitetin digər kateqoriyadan olan oxucularının informasiya tələbatına və sorğusuna uyğun şəkildə kitabxana və məlumat-biblioqrafiya xidməti göstərir *[3, s. 423]*. KİM-də 5 şöbə fəaliyyət göstərir: Xidmət, Komplektləşdirmə və kitabişləmə, Kataloq, Biblioqrafiya, Oxu zalı.

DOI:10.30546/gdu.2023.152-157

Xidmət şöbəsi oxuculara monoqrafiya, dərslik, dərs vəsaitləri, metodik göstərişlər və digər çap məhsulları ilə zəngin fondu hesabına operativ xidmət göstərir. Həmçinin jurnal, qəzet, dissertasiya, avtoreferat, və başqa informasiya resursları ilə də oxucuların xidmətindədir.

KİM-də "Azərbaycan dilində kitab fondu", "Rus dilində kitab fondu", "İngilis dilində kitab fondu" və s. başlıqlar altında sistemli və əlifba kataloqu tərtib edilmişdir. Hazırda kitabxananın fondu 76.064 nüsxədir. Bunların 12.212 nüsxəsi elmi, 51.446 nüsxəsi tədris, yəni iqtisadi ədəbiyyatdır [1, s. 17-24].

Elektron kitabxanada 2.662 adda kitabın elektron versiyası yerləşdirilmişdir. Pandemiya dövründə KİM öz istifadəçilərinə 1.000-ə yaxın dərslik və dərs vəsaitini, "IPRbooks" bazasından 140 min kitabı, 2.000-ə yaxın audionəşri, rus dilində 676 elmi jurnalı, 10 nüfuzlu Beynəlxalq məlumat bazasından olan 200 min elektron kitabı, dünyanın aparıcı elmi jurnallarında nəşr edilmiş ingilis dilində 500 mindən çox elmi məqalələri və "Elsevier", "Hindawi", "HINARI" kimi açıq girişə malik olan elektron bazaları, Amerikanın Rəqəmsal Kütləvi Kitabxanasını və internet arxivi təqdim etmişdir [9].

Resurslar şöbəsində Ankara universitetinin resursları, İstanbul Universiteti kitabxanası, Birləşmiş Millətlər Kitabxanası, Beynəlxalq Valyuta Fondu, Dünya bankı, EconBiz, Universal Rəqəmsal Kitabxana-Milyon Kitab Koleksiyası, Kembric Universiteti Nəşri, Dünya rəqəmsal kitabxanası, İKSAD Beynəlxalq Nəşriyyat Evi kimi açıq girişə malik olan elektron bazalara keçidlər verilmişdir. Kitabxana-İnformasiya Mərkəzi "IPRbooks" elektron bazasına abunədir.

Saytda oxucuların istifadəsini optimallaşdıran 3 xidmət yaradılıb. Bunlar "Bizə online müraciət edin", "Rəy və təkliflər", "Kitabxanaçıdan soruş" xidmətləridir. "Bizə online müraciət edin" müvafiq şəxs tərəfindən idarə olunur və iş günü ərzində onlayn olaraq elektron kitabxanadan istifadə edən oxucuları müşahidə edərək onların sorğularını operativ şəkildə cavablandırır. Şifahi biblioqrafik sorğu ilə il ərzində cəmi 30-35 nəfər müraciət etməsinə baxmayaraq, onlayn xidmət vasitəsilə gün ərzində 100-130 nəfər oxucu sorğusu cavablandırılır.

Azərbaycan Dövlət İqtisad Univeristetinin professor-müəllim və tələbə heyətinə kitabxana xidmətini müasir səviyyədə təşkil edilməsi məqsədilə 24/7 kitabxana yaradılmışdır. KİM istifadəçilərinə *"EBSCO HOST"*, "Emerald Publishing", "İPR Smart" kimi məlumat bazalarına çıxışı da təqdim edir.

Oxu zalına müraciət edən oxucular əsasən elektron kitabxanadan istifadə edirlər. Oxu zalına qəbul olunan kitabların elektron versiyaları ardıcıl olaraq elektron fonda yüklənilir. Elektron kitabxanada oxu zalında bütün dillərdə olan kitabların və dövrü mətbuatın (jurnallarda olan məqalələr) kataloqu, mühazirələr yerləşdirilmişdir. Bu kataloqlar kitab (sistemli və əlifba) şəklində nəşr olunub oxucuların istifadəsinə verilmişdir. Oxu zalı müasir tələblərə cavab verən kompyuter avadanlıqları ilə təchiz edilmiş, avtomatlaşdırılmışdır. Universitet nəzdində fəaliyyət göstərən PDF proqramı ilə işləyən virtual kitabxana yalnız ADİU tələbələrinə xidmət göstərir. Burada kitabların ancaq elektron variantı vardır.

## Nəticə

Nəzərdən keçirilən məsələnin öyrənilməsi son illərdə iqtisadiyyat və menecment ixtisasları üzrə mütəxəssislərin hazırlanmasına marağın artması ilə təyin olunur. Mövcud mənbələr problemin vacibliyini əks etdirməklə yanaşı, eyni zamanda, onun ayrı-ayrı aspektlərinin hələ də araşdırılmadığını göstərir. Universitet Kitabxanası şəraitində kitabxana-informasiya təminatının optimallaşdırılmasının əsasını tədris prosesinin iştirakçılarının informasiya tələbatlarının ödənilməsi təşkil edir.

DOI:10.30546/gdu.2023.152-157

Ali təhsil ocaqlarının kitabxanaları müasir informasiya cəmiyyəti şəraitində fəaliyyət göstərməklə yanaşı, kitabxana fondlarıınn yaradılması və mühafizəsi, kitabxana-biblioqrafiya xidməti və digər ənənəvi xidmət funksiyalarını da yerinə yetirir. Bu baxımdan, iqtisadiyyat və idarəetmə ixtisasları üzrə mütəxəssislərin hazırlanması ilə məşğul olan universitetlərin informasiya məkanında kitabxananın rolunu və yerini əsaslandırmağa ehtiyac vardır. Son 30 ildə iqtisadiyyat və idarəetmə ixtisasları üzrə təhsil sahəsində olduğu kimi, bu ixtisaslara kitabxana-informasiya dəstəyi sahəsində də yeniliklər meydana gəlmişdir.

İqtisadiyyat və idarəetmə ixtisasları üzrə mütəxəssis hazırlığı ilə məşğul olan ali təhsil müəssisələrinin kitabxanalarının iş təcrübəsinin öyrənilməsi nəticəsində məlum olmuşdur ki, bu kitabxanalar biznes sahəsi üzrə informasiyanın toplanması və yayılması ilə məşğuldurlar. Kitabxana fondlarının təhlili göstərir ki, burada iqtisadiyyat və hüquq elmləri üzrə materialların 70%-i saxlanılmaqdadır. Beləliklə, iqtisadiyyat və idarəetmə ixtisasları üzrə mütəxəssis hazırlığı ilə məşğul olan universitetlərin kitabxanalarının ənənəvi funksiyalarına biznes funksiyaları da əlavə olunur.

### *Ədəbiyyat*

1.Azərbaycan Dövlət İqtisad Universitetinin Əsaslı Kitabxanasının 2022-ci il üçün hesabatı. 2023. 32.

*2.Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası kitabxanasının 2019-cu il üçün hesabatı. – 150 s.*

3.Xələfov, A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə. - Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2007.- 552 s.

4.Turizm və Menecment Universiteti Kitabxana İnformasiya Mərkəzinin 2020-ci il üzrə hesabatı. 94 s.

5.https://beu.edu.az/az/library/

6.https://khazar.org/az/item/1187

7.http://lib.bbu.edu.az/az/items/new

8.http://my.ada.edu.az

9.https://unec.edu.az/idareetme 11/merkezler/kitabxana/

## БИБЛИОТЕКИ ВУЗОВ КАК ИНФОРМАЦИОННЫЕ ПОСТАВЩИКИ ПРОФЕССИОНАЛЬНОЙ ПОДГОТОВКИ В СФЕРЕ БИЗНЕСА

***Каримова Севда Гамид кызы***

***Резюме***

Основной целью статьи является обоснование путей оптимизации библиотечно-информационного обеспечения подготовки специалистов экономико-управленческого профиля в высших учебных заведениях. В статье к исследованию привлечена деятельность библиотек высших учебных заведений, занимающихся подготовкой специалистов по данным специальностям, а также исследованы вопросы и проблемы библиотечно-информационного обеспечения. Прежде всего, в контексте современного высшего учебного заведения анализируется библиотечно-информационное обеспечение подготовки специалистов в области экономики и управления. Затем исследуются информационные потребности студентов, обучающихся по этим специальностям, и определяются их характеристики, определяются объем и возможности библиотек вузов, осуществляющих обучение в данной области. При написании статьи использовались методы анализа и сравнения. Актуальность применения: материал может быть использован на лекциях и семинарах в высших учебных заведениях. Статья также полезна для тех, кто интересуется библиотечным делом, историей и образованием.

DOI:10.30546/gdu.2023.152-157

## HIGHER EDUCATION LIBRARIES AS INFORMATION PROVIDERS OF PROFESSIONAL TRAINING IN THE FIELD OF BUSINESS

***Karimova Sevda Hamid***

***Summary***

The main goal of the article is the justification of ways to optimize the library-information provision of the preparation of specialists in economics and management profile in higher educational institutions. In the article, the activities of the libraries of higher education institutions engaged in the training of specialists in these specialties were involved in the research, and the issues and problems of library-information provision were investigated. First of all, in the context of a modern higher education institution, the library-information provision of training specialists in the fields of economics and management is analyzed. Then, the information needs of the students studying in these specialties are investigated and their characteristics are determined, the scope and capabilities of the libraries of the higher education institutes that carry out education in this field are determined. Analysis and comparison methods were used while writing the article. Application importance: the material can be used in lectures and seminars in higher education institutions. The article is also useful for those interested in librarianship, history, and education.

***Rəyçi: Dos.N.İ.İsmayılov***
***Biblioqrafiyaşünaslıq kafedrasının 25.04.23 tarixli iclasından***
***Daxil olma tarixi 11 iyul 2023-cü il***